# KİTABXANAŞÜNASLIQ

**UOT 021.1(479.24)**
**KBT Ч734.711..13(2A)**

**K.M.Tahirov, Ə.İ.İsmayılova**
ktahirov@anl.az
oxucu_xidmet@anl.az

## Mütaliə mədəniyyətinin formalaşmasında Açıq Kitabxananın rolu

**Xülasə:** *Məqalədə Azərbaycan Milli Kitabxanası tərəfindən hazırlanmış, maarif və mütaliəyə marağın artırılmasına istiqamətlənmiş layihədən bəhs edilir.*
**Açar sözlər:** *Azərbaycan Milli Kitabxanası, müəlliflərlə görüş, açıq kitabxana*
**Ключевые слова:** *Азербайджанская Национальная Библиотека, встречи с авторам, Открытая Библиотека*
**Key words:** *Azerbaijan National Library, meeting with authors, Open Library*

Qlobal informasiya cəmiyyətinin inkişafı şəraitində Azərbaycan Respublikasının kitabxanaları dövlətin mədəni tərəqqisinə mühüm töhfələr verməkdədir. Hazırda respublikanın kitabxana-informasiya şəbəkəsinin fəaliyyəti yeni inkişaf mərhələsindədir və informasiya mədəniyyətinin formalaşmasında xüsusi rol oynayır.

Son dövrlərdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev kitabxanaların səmərəli fəaliyyət göstərməsi, onların maddi-texniki bazasının möhkəmləndirilməsi, fondların zənginləşdirilməsi üçün bir sıra xüsusi əhəmiyyətli sənədlər imzalamışdır. “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” (2004), “Dünya ədəbiyyatı və uşaq ədəbiyyatı kitabxanası seriyasından kitabların nəşri haqqında” (2005), “Azərbaycanda kitabxanaların fəaliyyətinin təkmilləşdirilməsi haqqında” (2007), “Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı”nın təsdiq

olunması haqqında" (2008) imzalanan silsilə sərəncamların icrası nəticəsində kitabxana-informasiya sahəsində yeni texnologiyalar tətbiq edilmiş, müasir kitabxana-informasiya infrastrukturu yaradılmış, istifadəçilərə göstərilən kitabxana-informasiya xidmətlərinin sayının və keyfiyyətinin artırılması, əhalinin intellektual potensialının, bilik səviyyəsinin inkişafı, habelə fasiləsiz təhsilin təmin edilməsi üçün əlverişli zəmin yaradılmışdır.

Xalqımızın yaratdığı qiymətli tarixi-mədəni, ədəbi-bədii və elmi-fəlsəfi irsin toplanıb saxlanmasında, bəşər mədəniyyətinin qazandığı nailiyyətlərin nəsildən-nəslə çatdırılmasında və cəmiyyətimizin intellektual-mənəvi potensialının artırılmasında kitabxanalarımız əvəzsiz rol oynayır.

Mütaliəyə marağın artması, kitabxana-oxucu əlaqələrinin genişlənməsi, kitab müzakirələrinin keçirilməsi, mütaliənin sevdirilməsi və oxucularda mütaliə mədəniyyətinin formalaşdırılması kitabxanaların qarşısında duran əsas vəzifələrdən biridir.

Mütaliə bütün insanların, o cümlədən gənc nəslin tərbiyəsində mühüm əhəmiyyət kəsb edir. Mütaliə edilən hər bir kitab oxucunun təfəkkürünü inkişaf etdirir, yeni bilik qazandırır, marağını, mənəvi tələbatını ödəyir, insanın şəxsiyyət kimi formalaşmasına kömək edir. Kiçik yaşlarından kitaba olan maraq gəncləri həyat həqiqətlərini dərk etməyə sövq edir, onlarda mütaliə mədəniyyətini inkişaf etdirir.

Gənclərin fəal mütaliəyə cəlb olunması, mütaliə mədəniyyətinin formalaşdırılması məqsədilə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin və Milli Kitabxananın birgə layihəsi əsasında 2016-cı ilin iyul ayında Milli Kitabxananın nəzdində həftənin bütün günləri fasiləsiz, 24 saat fəaliyyət göstərən "Açıq Kitabxana – sərbəst mütaliə məkanı" yaradılmışdır.

Burada ayrı-ayrı oxucular, yazıçılar, şairlər, görkəmli elm və mədəniyyət xadiməri tərəfindən kitabxanaya hədiyyə edilən kitablar nümayiş olunur və onların mütaliəsinə şərait yaradılır. Eyni zamanda Açıq Kitabxanada kitabların mütaliəsi ilə bərabər, mübadiləsinə də gözəl imkan yaradılmışdır. Burada "Mən oxudum, sən də oxu" devizi altında "Kitabı kitaba dəyişmə" guşəsi də fəaliyyət göstərir. Açıq Kitabxanada hər bir vətəndaşa artıq özünün mütaliə etdiyi kitabı gətirərək həmin guşəyə təhvil vermək və əvəzində mütaliə etmədiyi kitabı apararaq özünün iş və yaşayış yerində mütaliə etmək imkanı yaradılmışdır. Bu guşəyə müraciət edən hər bir kəs mütaliə etdiyi və artıq ona lazım olmayan kitabların digər şəxslər tərəfindən də mütaliə olunmasına şərait yaradır. Kitabxanada həm ictimai-siyasi məzmunlu ədəbiyyat, həm milli ədəbi nümunələr, həm də Azərbaycan və dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərləri toplanmışdır. Açıq kitabxanadan hər bir kəs sərbəst, qeydiyyatsız yararlana bilir.

Hazırda gənclər arasında kitab oxumaq həvəsi əvvəlki illərə baxdıqda

aşağıdır. Çünki texnologiyaların inkişafı gəncləri özünə cəlb edən daha əyləncəli məşğuliyyətlərin yaranmasına səbəb olur. Bu gün yaşanmaqda olan sürətli dəyişikliklər prosesi kitabxanaların qarşısına yeni məsuliyyətlər qoymaqdadır. Çünki gənclər kitab oxumaq əvəzinə texnoloji əyləncələrə çox zaman ayırır və kitabxanaların bu əyləncələrlə rəqabət aparması çətinləşir. Gəncləri kitabxanaya cəlb etmək, onlar arasında bədii ədəbiyyatın təbliğini gücləndirmək məqsədilə Açıq kitabxanada "Könüllü qrupu" yaradılmışdır. Kitabxanada könüllülərin olması kitabxana fəaliyyətinin canlanmasına, oxucuların daha çox cəlb edilməsinə kömək edir. Könüllü qrupu fəal oxuculardan, xüsusilə də, yuxarı sinif şagirdlərindən, universitet tələbələrindən, kitabxananı və kitabı sevən oxuculardan təşkil edilmişdir. "Könüllü qrupu" Açıq kitabxanada keçiriləcək tədbirlər haqqında sosial şəbəkələrdə paylaşır və öz oxuduqları maraqlı kitablar haqqında fikir mübadiləsi edirlər. Bu da gənclər arasında mütaliənin təbliğini genişləndirir.

Yeni kitabxanada həmçinin, açıq səma altında poeziya günləri, mütaliə axşamları, ayrı-ayrı yazıçı və şairlərlə görüşlər keçirilir, yazıçı və şairlərin yeni kitablarının təqdimat mərasimləri, imzalı görüşlər təşkil olunur.

Açıq Kitabxanada yaddaqalan imzalı görüşlərdənbiri yazıçı-publisist, filologiya üzrə fəlsəfə doktoru Sona Vəliyevanın Azərbaycan milli mətbuatının banisi, "Əkinçi" qəzetinin baş redaktoru Həsən bəy Zərdabinin həyat yolundan bəhs edən "İşığa gedən yol" romanının imza mərasimi olmuşdur. Romanda Azərbaycan milli mətbuatının banisi Həsən bəy Zərdabinin Zərdabda keçirdiyi uşaqlığından, Şamaxı, Tiflis və Moskvada təhsil aldığı illərdən başlayaraq keçdiyi uzun, keşməkeşli həyat yolu əks olunur. Əsərdə Həsən bəy Zərdabinin Moskva Dövlət Universitetini bitirəndən sonra Tiflis və Bakıda məmur, Qubada isə müəllim kimi fəaliyyət göstərməsi təsvir edilir. Realnı Gimnaziyada dərs dediyi vaxtlarda Həsən bəyin Azərbaycanda ilk dəfə kasıb ailələrin uşaqlarının təhsilə cəlb olunması üçün Xeyriyyə Cəmiyyəti yaratmaq niyyəti ilə müxtəlif bölgələrə - Şamaxı, Gəncə, Tiflis, İrəvan və Naxçıvana səfərlərindən bəhs edilir. Müəllif Həsən bəyin bu səfərlərini işıqlandırarkən həm adı çəkilən bölgələrin tarixinə dair qiymətli informasiyaları oxucuların diqqətinə çatdırır, həm də həmin dövrün ziyalıları, nüfuzlu, imkanlı şəxsləri barədə dolğun təəssürat yaradır. Həsən bəy Zərdabinin dostluq etdiyi o dövrün görkəmli ziyalıları – Mirzə Fətəli Axundov, Seyid Əzim Şirvani və digər tanınmış insanlar, eləcə də öz tələbələri – Nəcəf bəy Vəzirov, Əsgər ağa Gorani və başqaları ilə apardığı fikir mübadilələrində maarifçilik ideyalarının ilk qığılcımlarının necə yaranması da romanda öz əksini tapır. Xalqın mədəniyyət, ədəbiyyat, bir sözlə ziyalılıq tarixinə işıq salan bu roman Azərbaycan oxucusuna sadə, bədii dillə təqdim edilir.

2017-ci il iyul ayının 7-də Milli Kitabxananın nəzdində fəaliyyət göstərən Açıq kitabxanada Mədəniyyət və Turizm Nazirliyi, İLESAM təşkilatı, Azərbaycan Milli Kitabxanası və AYB Müşfiq Komissiyasının "Günlərdən Şe-

ir" adlı birgə layihəsinə start verilmişdir. Hər həftənin cümə günü burada Poeziya günü keçirilir. Şairlər öz yaradıcılığından şeirlər oxuyurlar, müzakirələr edirlər. Artıq bu layihə Açıq kitabxananın oxucularını şair Mehmet Nuri Parmaksızla, Rusiyada yaşayan dəyərli şairimiz Nəsib Nəbioğluyla, Kərküklü Fərrux Köprülü və Azərbaycanın gənc yazarları ilə görüşdürmüşdür. Bir sözlə, yeni layihə oxucularla müəlliflərin görüş yerinə çevrilərək, kitabla oxucular arasında fəal əlaqələndirmə funksiyasını yerinə yetirir.

Yeni yaradılmış Açıq Kitabxananın əsas üstünlüklərindən biri də odur ki, müəlliflər tərəfindən təqdim edilən kitablar Milli Kitabxananın fondu ilə yoxlanılır və fondda olmayan kitabların bir nüsxəsi dərhal kitab fonduna daxil edilir.

Açıq Kitabxana yarandıqdan sonra bu üsulla Milli Kitabxananın fonduna xeyli sayda ədəbiyyat daxil olmuşdur. Məlumdur ki, bu gün oxucuların əksəriyyəti gənc nəslin nümayəndələridir. Buna görə də Açıq Kitabxananın fonduna Azərbaycan dilində təqdim edilən kitablar latın qrafikasındadır.

Açıq Kitabxananının "Dövri mətbuat guşə"sində oxucular üçün maraqlı jurnallar və qəzetlər toplanmışdır. Açıq kitabxananın bu guşəsi hər gün yeni dövri mətbuat nümunələri ilə təmin edilir. Burada "Azərbaycan", "Azərbaycan xalçası", "Yada düşdü", "İrs", "Yazı" ədəbiyyat dərgisi, "Ulduz", "Mədəniyyət.az", "Baku", "Port Baku", "Forbes Life" jurnallarının və qəzetlərin yeni nömrələri müntəzəm olaraq oxucuların istifadəsinə təqdim edilir. Açıq kitabxanada valideynlərin öz övladları ilə birgə zaman keçirə bilməsi üçün də əlverişli şərait yaradılmışdır. Valideynlər uşaq guşəsində olan kitabları evdə deyil, elə kitabxanada oxuyaraq uşaqların kitabxanaya olan marağınıvə gələcəkdə onların kitabxanaya sevə-sevə gəlmələrini təmin edə bilirlər. "Uşaq guşəsi"ndə azyaşlı və məktəbyaşlı uşaqlar üçün kitablar və jurnallar təqdim edilir. Uşaqlar üçün maraqlı olan yerli və xarici sehrli nağıllar, məişət nağılları, müxtəlif hekayələr, "Hökmdarlar və sərkərdələr", "Prezidentlər və dövlət xadimləri", "Tarixi şəxsiyyətlər" və s. seriyalarla çap olunmuş silsilə uşaq kitabları kiçikyaşlı oxucularımızın xüsusi marağına səbəb olur. Danılmaz faktdır ki, mütaliə uşaqların nitqini həm formalaşdırır, həm də zənginləşdirir. Mütaliə zövq və təfəkkürü tərbiyə edir. Oxunan hər bir kitab, istər elmi, istərsə də bədii olsun, uşaqların dünyagörüşünü artırır, onlara həyat hadisələrindən baş açaraq düzgün istiqamətlənməyə, müstəqil öyrənməyə və qərar verməyə kömək edir. Çox mütaliə edən uşaqların intellekti sürətlə inkişaf edir və başqalarından fərqlənir. Bunun bariz nümunəsi cəmiyyətdə mütaliə edən uşaqlarla mütaliə etməyən uşaqlar arasındakı kəskin fərqdir ki, bu fərq ünsiyyət prosesində dərhal üzə çıxır.

Kitabxananın "Milli musiqi guşəsi"ndə Azərbaycan bəstəkarlarının əsərləri, musiqi ədəbiyyatı və jurnallar toplanmışdır. Bu guşə əsasən məktəb,

kollec, Bakı Musiqi Akademiyası və Azərbaycan Milli Konservatoriyasının tələbə və müəllimlərinə, eyni zamanda musiqi ilə maraqlananlara, bəstəkarlara, musiqişünaslara, musiqiçilərə xidmət göstərir. Burada korifey ifaçılarımızdan ölməz Bülbül, Xan Şuşinski, unudulmaz Rəşid Behbudov, Lütfiyar İmanov, Habil Əliyev, görkəmli bəstəkarlarmızdan Ü.Hacıbəyov, Q.Qarayev, F.Əmirov və digər sənətkarlarımızhaqqında müxtəlif kitablar toplanmışdır.

Məlumdur ki, bu gün Bakıda və respublikamızın digər şəhər və rayon mərkəzlərində kitab mağazaları çox azdır. Buna görə də Mədəniyyət və Turizm Nazirliyinin göstərişi ilə kitabxanalarda kitab satışının təşkilinə icazə verilmiş və Milli Kitabxananın nəzdində yaradılan Açıq Kitabxanada da vergi qanunvericiliyinə əməl edilməklə kitab satışı və kitab sifarişi mərkəzi yaradılmışdır. Burada istənilən müəllifə özünün yeni çap olunan kitabını satış üçün Açıq Kitabxanaya təqdim edərək müəyyən müddətdən sonra satılan kitablarının dəyərini geri ala bilmək imkanı yaradılmışdır.

Yeni tipli Açıq Kitabxanada Azərbaycan Milli Kitabxanasının Elektron kataloqundan, Elektron kitabxanasından, Azərbaycan ədəbiyyatının virtual kitabxanasından və digər elektron kitabxanalardan oxucuların istifadəsi üçün kompüter avadanlıqları və ödənişsiz Wi-Fi şəbəkəsi quraşdırılmışdır. Burada Azərbaycanla yanaşı, Rusiyada, Türkiyədə və digər ölkələrdə çap olunan kitabları onlayn sifariş etmək imkanı yaradılmışdır. Xidmətlərin genişləndirilməsi, oxuculara göstərilən xidmətin səviyyəsinin daha da artırılması üçün Açıq Kitabxananın saytı fəaliyyət göstərir. Sayt vasitəsilə oxucular Açıq Kitabxananın virtual sifariş xidmətlərindən yararlanır və onun fondunda olan kitablarla onlayn formatda tanış ola bilirlər. Həmçinin oxucuların dünya və respublika kitabxanalarının saytlarına giriş, internetdən kitab satışı həyata keçirən mərkəzlərlə əlaqə imkanı vardır.

Açıq Kitabxananın fəaliyyət göstərdiyi müddət ərzində bu sərbəst mütaliə mərkəzi çoxlu sayda insanların asudə vaxtlarını səmərəli keçirdikləri bir məkana çevrilmişdir. Heç təsadüfi deyildir ki, bir sıra kütləvi informasiya vasitələri – televiziyalar, o cümlədən internet televiziyalar, qəzetlər, saytlar artıq bu məkan haqqında çoxsaylı reportajlar hazırlamış və insanlar bu təcrübəni çox yüksək qiymətləndirərək respublikanın və paytaxtımızın digər yerlərində də təşkilini arzu etdiklərini söyləmişlər. Açıq Kitabxanaya gələn oxucuların sayı artıq gündən-günə artmaqdadır. Rəy və təkliflər kitabında təkcə şəhərimizin sakinlərinin deyil, Bakıya gələn çoxlu sayda xarici qonaqların və turistlərin də müsbət rəyləri öz əksini tapmışdır.

Kolumbiyanın Azərbaycandakı müvəqqəti işlər vəkili xanım Marta Galindo Pena, Çexiya Milli Kitabxanasının direktoru cənab Petr Kroupa, Qazaxıstan Respublikası Parlamentinin deputatı, professor Nurlan Dülambekov, Türkmənistanın Azərbaycan Respublikasındakı səfirliyinin birin-

ci katibi-konsul Batur Rəcəbov, Rumıniyanın Azərbaycan Respublikasındakı səfiri cənab Dan İanku və bir sıra digər ölkələrdən Milli Kitabxanaya gələn qonaqlar Açıq Kitabxana ilə tanış olmuş, böyük məmnunluqla belə gözəl bir təşəbbüsün əhali arasında mütaliə vərdişlərinin daha da inkişafında əhəmiyyətini qeyd etmiş və belə kitabxananın öz ölkələrində də yaradılmasının zəruriliyini bildirmişlər.

Əhaliyə 24 saat fasiləsiz xidmət edən Açıq Kitabxanada bəzən günün gecə saatlarınadək mütaliə edənlər olur. Qeyd edək ki, axşam saatlarında oxucuların sayında çoxluq müşahidə edilir. Bu səbəbdən də Açıq Kitabxananın ərazisi mühafizə xidməti tərəfindən gecə-gündüz qorunur. Bugün "Açıq kitabxana" layihəsi mütaliənin təbliğinə öz töhfəsini verməkdədir. Artıq bu təcrübə respublikamızın bir sıra bölgələrində də tətbiq olunmuşdur.

**Ədəbiyyat**


1. Azərbaycan Milli Kitabxanasının hesabatları.
2. Kitabxana işinə dair rəsmi sənədlər: (Qanun və qanun qüvvəli normativ hüquqlu sənədlər toplusu) /tərt. K.Tahirov; red. A.Abdullayeva.- 3-cü təkmilləşdirilmiş nəşri. Bakı, 2015. 200s.


## Роль Открытой Библиотеки в формировании культуры чтения

К.М.Тахиров, А.И.Исмайлова

**РЕЗЮМЕ**

*В статье говорится о разработанном в Азербайджанской Национальной Библиотеке проекте, направленном на усиление интереса к чтению ипросвещению.*

## The role of Open Library in the formation of reading literacy

K.M.Tahirov, A.I.Ismayilova

**SUMMARY**

*The article is about the project prepared by the Azerbaijan National Library aimed at increasing interest in enlightenment and reading.*